BAKI XƏBƏR
8
28 MART 2023
№ 51 (4894)


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

# Vətən müharibəsi və sosial-siyasi fəallığın yeni motivləri...



**Dünya tarixinə yazılan Vətən müharibəsi xalqımızın, dövlətimizin tarixində xüsusi əhəmiyyətə, çəkiyə malikdir. Xalqımızın oğulllarının yaratdığı qəhrəmanlıq epopeyası neçə-neçə nəsillərin yaddaşına köçəcək. Vətən müharibəsi həm də cəmiyyətimizdə yeni ab-hava formalaşdırdı, cəmiyyətin sosial-siyasi fəallığının artmasına, insanların siyasi mədəniyyətinin yüksəlməsinə səbəb oldu.**

Bir sözlə, 44 günlük müharibədən sonra Azərbaycanın yeni dövrü başladı ki, burada da vətəndaşların sosial siyasi fəallığı özünü daha qabarıq göstərdi. Müharibə dövründə olduğu kimi, müharibədən sonra da insanlarımızda aktivlik özünü qoruyub saxlaya bildi.

Azərbaycan vətəndaşları bütün gücü ilə düşmən təxribatına qarşı birləşib və siyasi aktivlikləri ilə diqqət çəkirlər. Yüz gündən artıqdır ki, Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması tələbi ilə vətəndaşlarımız Şuşa-xankəndi yolunda dinc aksiya keçirir. Bu vətəndaşlarımızın sosial-siyasi fəallığının göstəricilərindən biridir.

**Vətən müharibəsi ölkədə sosial-siyasi fəallığa necə təsir göstərdi?**

AVCİYA-nın vitse-prezidenti, siyasi şərhçi, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, 44 günlük Vətən müharibəsi çox ağıllı və çevik siyasətin nərticəsi idi. "Açığını deyək ki, bu əksəriyyət üçün gözlənilməz oldu. Çünki 27 il idi dünya elə bilirdi ki, biz işğalla barışmışıq. Amma belə olmadı. Azərbaycan rəhbərliyinin yeritdiyi ağıllı, çevik siyasət nəticəsində və qəhrəman əsgərlərimizin bilavasitə vətən uğurunda mübarizəsi sonucunda biz torpaqlarımızı azad etdik. Müharibədən əvvəl də ictimai siyasi vəziyyətdə birlik vardı, xalqla Prezidentin birliyi nümayiş olundu. Yəni pandemiya şəraitində parlament qarşısına toplanması müharibə ərəfəsində xalqın birliyinin testi idi. 44 günlük müharibədə isə xalqla Prezidentin bir olması, Prezident ətrafında bir yumruq kimi birləşməsi qələbəni təmin etdi. Sevindirici haldır ki, Azərbaycan xalqı tarixən işğalla barışmadığı kimi yenə də işğalla barışmadı, bunu xalq, millət olaraq dünyaya sübut etdi ki, biz işğalla barışmırıq, torpaqlarımızın azadlığını və torpaq uğurunda ölməyi şərəfli iş hesab edirik, düşmənlər Azərbaycan xalqının heç zaman işğalla barışayacağını bilsinlər. Bu müharibə düşmən üçün bir dərs olmalıdır. Prezidentin də müdrik kəlamı var ki, mən nəyi nə zaman etməyi yaxşı bilirəm. Mən 27 sentyabrda prosesin başlanılması çox uğurlu bir seçim idi. Düzdür, əksəriyyətimizin bu seçimdən xəbəri yox idi. O elə bir gün idi ki, artıq KTMT-yə daxil olan ölkələr hərbi təlimlərdən evlərinə geri qayıtdılar. 27 sentyabrda isə bizim ordumuz erməni təxribatlarını zərərsizləşdirmək üçün əks-hücua keçdi. Bu dünya təcrübəsində görünməmiş uğurlu əməliyyatlardan biridir, bir nümunədir. Bilirsiz ki, dünyanın hərb akademiyalarında da 44 günlük müharibə öyrənilir, tədris olunur. Qələbədən sonra isə dünyada əm Azərbaycan dövlətinin, həm də Azərbaycan xalqının nüfuzu qalxdı. Bu da bizim cəmiyyətdə ictimai-siyasi proseslərə, fəallığın artmasına müsbət təsir etdi. Biz indi nəinki Azərbayxcan dövlətçiliyi uğurunda mübarizəyə hazırıq, hətta Şuşa bəyannaməsindən sonra qardaş Türkiyəyə qarşı da hər hansı bir təcavüz olarsa qardaş olaraq onlara da dəstək verə bilərik". M.Züifüqarlı qeyd etdi ki, bu XXI əsrdə Azərbaycan xalqının əldə etdiyi böyük nailiyyətdir və biz hamımız bu nailiyyətə görə qürur hissi keçiririk, bu uğurların davamlı olmasını istəyirik, bu yolda da çalışırıq.

**"Bu məsələ də cəmiyyətdə sosial-siyasi aktivliyin güclənməsinə şərait yaratdı"**

"Müasir İnkişaf" Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü də bizimlə söhbətində bildirdi ki, Vətən müharibəsinin nəticələri cəmiyyətin sosial-siyasi aktivliyinə ciddi təsir göstərib. "Ümumiyyətlə, İkinci Qarabağ müharibəsindən əvvəl Azərbaycanda bir proses başladı. Növbədənkənar parlament seçkiləri keçirildi, seçkilərdən dərhal sonra formalaşdırılan parlamentdə isə müxalifət nümayəndələrində vəzifə verildi. Eyni zamanda da siyasi partiyaların qeydiyyata alınması, Prezident Administarsiyasında aidiyyatı şöbəsinin yaradılması, partiya liderləri ilə görüşlərin keçirilməsi siyasi həyatda canlanmanın artmasına səbəb olan amillərdə oldu. Vətən müharibəsi dövründə dövlətçiliyə sadiq olan bütün siyasi partiyalar Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin siyasətini dəstəklədilər. Həmrəylik nümayiş oldu. Bu Ermənistandan fərqli situasiya idi. Orada partiyalar hökumətin əleyhinə çıxıb əks bəyanatlar verirdilər, siyasi mühitləri çox qarışıq idi. Bizdə isə vəziyyət başqa cür oldu. Müharibəyə qədər bizdə bir məğlubiyyət sindromu vardı, amma müharibə bizi bu psixoloji təsirdən azad etdi. Amma müharibədən qalib şəkildə çıxmağımız cəmiyyətdə insanların özünə inamını daha da artırdı. Əlbəttə, bu məsələ də cəmiyyətdə sosial-siyasi aktivliyin güclənməsinə şərait yaratdı. Eyni zamanda dövlətin beynəlxalq aləmdə nüfuzu artdı. Bütün bu amillər isə dediyim kimi sosial-siyasi fəaliyyətin canlanmasına, daha da güclənməsinə gətirib çıxardı. Cəmiyyətmizdə siyasi fəallıq mövcuddur. Bu istiqamətdə siyasi mədəniyyətin də formalaşdığını müşahidə edirik. Bütün sahələrdə siyasi fəallıq artmaqdadır" - deyə M.Göyüşlü qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**